**Hind gəncləri stadionu**

Hindistanda 1984-cü ildə açılmış bu idman qurğusu öz böyüklüyünə görə dünyanın ikinci stadionu sayılır. Stadionun üç yarus üzrə yerləşən tribunaları 120000 tamaşaçı tutur. Ellips formasında inşa edilmiş stadion Kəlküttə şəhərinin mərkəzindən təxminən 7 kilometr aralıdadır. Tribunaların üzərindəki örtük möhkəm borulardan, alüminium təbəqələrdən və betondan hazırlanıb. Stadionun iki elektron tablosu var və gecə işıqlandırması üçün qurğular mütənasib şəkildə paylanılıb. Stadionda televiziya translyasiyalarının aparılması üçün xüsusi təchizat quraşdırılıb. Stadionun ümumi sahəsi 309 min kvadratmetrdir. Bu obyektin aparıcı xüsusiyyətləri sintetik materialdan hazırlanmış qaçış yolu, elektron tablosu, 105x70 metr ölçüdə futbol meydançası, VIP sektorlar üçün quraşdırılmış lifti, konfrans zalı ilə səciyyələnir. Bundan başqa, stadionda şərhçi kabinələri, televiziya kameraları üçün xüsusi platformalar, KİV nümayəndələri üçün lojalar, restoranlar və istirahət otaqları, futbol, kriket və kxo-kxo oyunları üçün məşq yerləri, voleybol meydançaları və gimnastika zalı var. Stadion xüsusi su təchizatı sistemi və ayrıca dizel generatoru ilə təmin olunub.

Daha bir adı «Salt-Leyk-Stedium» («Duzlu göl stadionu») olan bu nəhəng idman qurğusunun işıqlandırılması üçün hər birinin gücü 2 kVt olan 624 elektrik lampasından istifadə edilir. İki elektron tablonun isə hər birində hərəsinin gücü 25 Vatt olan 36000 lampa quraşdırılıb. Yanğın əleyhinə sistemdə ümumi tutumu 10000 qallon olan dörd yeraltı rezervuardan istifadə edilir. Stadionun memarlıq və konstruksiya layihəsi Kəlküttədəki yerli şirkətlərin iştirakı ilə hazırlanıb. Qaçış yolunu Almaniyanın «Tartan Track» şirkəti, elektron tablonu isə Macarıstanın «Electro Impex» şirkəti quraşdırıb.

Stadionda, əsasən, yerli «İst-Benqal», «Mohun Bahan» və «Mohammedan» futbol klublarının oyunları keçirilir. Hindistanın milli futbol komandasının ölkədə oynadığı bir çox oyunlar məhz bu stadiona salınır. 1987-ci ildə isə burada yüngül atletika üzrə III Cənubi Asiya oyunları keçirilib. İdman yarışlarından əlavə, stadionda mühüm mədəni tədbirlər - rəqs festivalları, populyar musiqi ifaçılarının konsertləri və s. də təşkil edilir.